# Azərbaycanın uğurları dünyada təqdir edilir

***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün iqtisadi strategiyanın uğurla həyata keçirilməsi, dərin islahatların davamlılığının təmin olunması, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin inkişafı və bütün bunlarla yanaşı, Qarabağ və Şərqi Zəngəzurun sabitlik, tərəqqi məkanına çevrilməsi kimi məsələlər qarşıya prioritet vəzifələr kimi qoyulub. Son 18 il ərzində də bu istiqamətlərdə genişmiqyaslı tədbirlər reallaşdırılıb, islahatlar gerçəkləşdirilib, nəticədə parlaq uğular qazanılıb. Bu, beynəlxalq təşkilatların hesabatlarında öz ifadəsini tapıb.***



Dünyanın ən böyük beyin mərkəzlərindən olan "İrs" Fondu tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi – 2021" hesabatında Azərbaycan irəliləyiş əldə edib. Ölkəmiz hesabatda dünya reytinqində əvvəlki hesabat ili ilə müqayisədə 6 pillə irəliləyərək 178 ölkə arasında 38-ci yerə, regional reytinqdə– Avropa regionu üzrə əvvəlki hesabat ili ilə müqayisədə 1 pillə irəliləyərək 45 ölkə arasında 23-cü yerə yüksəlib. Bununla yanaşı, Azərbaycan hesabatda dünya üzrə orta göstəricidən (61,6 bal) yuxarı və Avropa regionu üzrə orta göstəriciyə bərabər nəticə əldə edərək 70,1 bal qazanıb.

Dünya İqtisadi Forumu tərəfindən "Qlobal Rəqabətlilik İndeksi"ndə Azərbaycan 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci mövqedə qərarlaşıb. Hesabatın son nəşrinə əsasən, Azərbaycan 12 indikatordan 8-i üzrə irəliləyərək MDB ölkələri arasında lider mövqelər sırasında yerləşib. Həmçinin ölkəmiz bu hesabatda Cənubi Qafqaz regionunda birinci yeri tutub.

"Qlobal İnnovasiya İndeksi" hesabatında əvvəlki hesabat ili ilə müqayisədə Azərbaycan ümumi reytinq sıralamasında 2 pillə irəliləyərək 132 ölkə arasında 80-ci olub. Həmin hesabatda Azərbaycan müxtəlif gəlir səviyyələrində innovasiya performansına görə "Yuxarı orta gəlir qrupu"na (upper middle-income group economies) aid edilib.

BMT-nin Dayanıqlı İnkişaf Hesabatında bildirilir ki, respublikamızın 2021-ci ildə də mühüm qlobal təşəbbüslərdə fəal iştirakı yerli iqtisadi islahatların gedişini sürətləndirib, səmərəliliyini artırıb. Buna görə də Azərbaycan bu dövrdə Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72,4 xal toplayaraq, regionda ən yaxşı nəticəyə nail olub. Beləliklə, ölkəmiz 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutub. Sənəddə Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahələrində əldə etdiyi tərəqqi xüsusi vurğulanıb.

**(ardı 4-cü səhifədə)**

# Azərbaycanın uğurları dünyada təqdir edilir

*(əvvəli 1-ci səhifədə)*

Şübhəsiz ki, bu məsələdə Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulması xüsusi önəm daşıyıb. Dövlətimizin başçısı bununla əlaqədar çıxışlarının birində deyib: "Azərbaycan dünyada 2030-cu il Gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlət olub".

Yeri gəlmişkən, respublikamızda pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azaldılması bu istiqamətdə həyata keçirilən tədbirlərin, eləcə də, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin daim diqqət mərkəzində saxlanılması nəticəsində gerçəkləşib. Xatırladaq ki, Dayanıqlı İnkişaf Məqsədləri dünyada həyat səviyyəsini yüksəltmək, bərabərsizliyi azaltmaq, dayanıqlı iqtisadi inkişafa təkan vermək kimi vəzifələrin icrasını qarşıya mühüm vəzifə kimi qoyub. Uğurla reallaşdırılan inkişaf strategiyası nəticəsində Azərbaycanda yoxsulluq son 18 ildə 49 faizdən 5 faizə enib. "Bərabərsizliyin azaldılması" məqsədinə gəlincə, Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdə qərarlaşıb.

Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar, əldə edilən makroiqtisadi sabitlik və yoxsulluğun aşağı olması həyat səviyyəsinə müsbət təsir göstərir. Respublikamızda yüksək həyat tərzi üçün ən müasir infrastruktur və təminat mövcuddur. Azərbaycanın dünya iqtisadiyyatına sürətli inteqrasiyası ixracın genişlənməsini şərtləndirir, bu şəraitdə ticarət tərəfdaşlarının sayı da ilbəil artır. Hazırda dünyanın 180 ölkəsi ilə ticari-iqtisadi əlaqələr həyata keçirilir. Xarici bazarda rəqabətin kəskinləşməsinə baxmayaraq, ölkə məhsul ixracında öz payını qoruyur və bu paya görə Azərbaycan 200-ə yaxın dövlət arasında ilk 70-likdə qərarlaşıb. Əlverişli biznes mühiti və iqtisadiyyatın rəqabət qabiliyyəti adambaşına gəlir səviyyəsinin artmasına nail olmaq üçün əsas şərt rolunu oynayıb.

Müstəqil Azərbaycan bu gün sosial-iqtisadi, siyasi və mədəni inkişafının yeni mərhələsini yaşayır. Ölkədə milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin etmək məqsədilə məqsədyönlü sosial-iqtisadi islahatlar həyata keçirilir. Bunun nəticəsində iqtisadiyyatın həcmi getdikcə böyüyür, infrastruktur yenilənir və güclənir, maliyyə imkanları genişlənir və nəhayət, Azərbaycan yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənir.

Son illədə artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəldib, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyinin güclənməsinə möhkəm zəmin yaradıb.

Bununla bərabər, uzun müddətdir ki, qlobal bəlaya çevrilən koronavirus pandemiyası ilə aparılan səmərəli mübarizə, ümumdövlət məqsədləri naminə həmrəylik təcrübəsi və ərazi bütövlüyünün bərpası irimiqyaslı və dərin islahatların aparılmasına zəruri əsasları gücləndirib. Əvvəlki illərdə reallaşdırılan islahatlar hesabına respublikanın sosial-iqtisadi potensialı artıb, iqtisadiyyatın xarici təsirlərə dözümlülüyü yaxşılaşıb. Azərbaycanda sosial-iqtisadi quruculuq tədbirləri və ərazi bütövlüyünün təmini uzunmüddətli dövrdə Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına müsbət təsir göstərib.

Azərbaycanın uğurları BMT-nin başqa bir hesabatında da öz ifadəsini tapıb. Belə ki, adıçəkilən beynəlxalq təşkilatın 2021-ci il üçün Rəqəmsal və Davamlı Ticarətin Asanlaşdırılması üzrə Qlobal Hesabatında ölkəmizin son illərdə bu sahədə yüksək göstəricilər əldə etdiyi qeyd olunub. Respublikamız BMT-nin müsbət qiymətləndirilən meyarlar üzrə mümkün 100 faizdən 86 faiz toplayaraq, bu sahədə Cənubi və Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya regionunda liderliyi təmin edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) məlumatında bildirilir ki, ölkəmizdə 2015-ci ildən indiyədək rəqəmsal və davamlı ticarətin asanlaşdırılması diqqət mərkəzində saxlanılıb və müəyyən layihələr reallaşdırılıb. Bunun nəticəsində Azərbaycan ötən il ərzində 5 faiz artımla davamlı inkişafı qoruya bilib.

İİTKM-in məlumatında daha sonra vurğulanır ki, BMT-nin sözügedən hesabatına əsasən respublikamız rəqəmsal və davamlı ticarətin asanlaşdırılmasına görə, rəsmi qaydalar üzrə 91,67, institusional tənzimləmə və əməkdaşlıq üzrə 88,89, kağızsız ticarət üzrə 85,19, transsərhəd kağızsız ticarət üzrə isə 66,67 faiz nəticə əldə edib.

Hesabatda xatırladılır ki, rəqəmsal və davamlı ticarətin asanlaşdırılması ilə bağlı ötən il Azərbaycanda geniş islahatlar həyata keçirilib, "Rəqəmsal Ticarət Qovşağı" portalı yaradılıb. Bu isə respublikamızın xarici ticarət əməliyyatlarının genişləndirilməsi məqsədi daşıyıb. Ölkəmiz, həmçinin 20 fevral 2021-ci il tarixdən qüvvəyə minən "Asiya-Sakit Okeanında Sərhədlərarası Kağız Ticarətin Asanlaşdırılması Çərçivə Sazişi"ni imzalayan ilk dövlətlərdən biri olub və bu sahədə aparılan digər islahatlar qlobal müstəvidə Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərib.

BMT-nin hesabatında Azərbaycanın rəqəmsal və davamlı ticarətin asanlaşdırılması istiqamətində gördüyü işlərin yüksək qiymətləndirilməsində İİTKM-in Azexport.az portalı və "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən gerçəkləşdirilən innovativ layihələr də xüsusi önəm daşıyıb.

Hesabatda ölkədə cari vəziyyətin qiymətləndirilməsinin həyata keçirilməsi ilə yanaşı, transsərhəd kağızsız ticarətin yaxşılaşdırılması məqsədilə gələcək üçün tövsiyələr də təqdim olunub.

Azərbaycan dövləti hazırda keyfiyyətcə yeni bir dövrə – 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olub. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşmanın təmin edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncamı da qarşıdakı dövrdə respublikamızın əsas sosial-iqtisadi inkişaf istiqamətlərini və buna uyğun milli prioritetlərini müəyyənləşdirməklə əldə olunan uğurların miqyasının, həmçinin həcminin genişləndirilməsi məqsədi daşıyır.

Sənəddə uzunmüddətli dövrdə iqtisadi artımın sağlam və tarazlı olmasının önəmi, həmçinin belə iqtisadi artımın ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaradacağı vurğulanıb. Eyni zamanda, bu prioritetin səmərəli həyata keçirilməsi üçün iki məqsədin–davamlı və yüksək iqtisadi artımın, daxili və xarici təsirlərə dayanıqlığın təmin olunması nəzərdə tutulub.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bildirilir ki, iqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. Ona görə də iqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunmalıdır. İqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 17 fevral.- S.1;4.